Azərbaycan Respublikası adından

**QƏRAR**

Bakı şəhəri İş № 2(102)-5958/2021 13.10.2021

**ALİ MƏHKƏMƏ**

**AZƏRBAYCAN RESPUBLİKASİ ADİNDAN**
**Q Ə R A R**

**Azərbaycan Respublikası Ali Məhkəməsinin**
**Mülki Kollegiyası**

Hakimlər Əliyev Zaur Əli oğlu (sədrlik edən və məruzəçi), Hüseynov Abiddin Qabil oğlu və Xələfov İlqar Rəhim oğlundan ibarət tərkibdə,
Əhmədov Nurlan Vəli oğlunun katibliyi ilə,

Gəncə Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 16.06.2021-ci il tarixli, 2(104)-621/2021 nömrəli qətnaməsindən Cavabdeh1 tərəfindən verilmiş kassasiya şikayəti üzrə mülki işə baxaraq,

**MÜƏYYƏN ETDİ:**

Cavabdeh1 qeyd edilən qətnamədən verdiyi kassasiya şikayəti kassasiya instansiyası məhkəməsinin hakiminin 13.09.2021-ci il tarixli qərardadı ilə icraata qəbul edilmişdir.

Gəncə Apellyasiya Məhkəməsi 28 sentyabr 2021-ci il tarixli məktubla həmin qətnamədən İddiaçı ASC tərəfindən verilmiş kassasiya şikayətinin qanunvericiliyin tələblərinə uyğunluğunun yoxlanılması üçün işin həmin məhkəməyə göndərilməsini xahiş etmişdir.

Mülki Prosessual Məcəllənin 417.1.7-ci maddəsinə əsasən, kassasiya şikayəti ...icraata qəbul olunduqdan sonra digər şəxslərin kassasiya şikayəti ilə apellyasiya məhkəməsinə müraciət etməsi müəyyən edilərsə, icraata qəbul qərardadını ləğv edərək işi kassasiya baxışından çıxarmaqla apellyasiya instansiyası məhkəməsinə qaytara bilər.http://www.e-qanun.gov.az/alpidata/code/data/0/c_c_9.htm

Göstərilənlərə əsasən və Azərbaycan Respublikası MPM-nin 417-ci maddəsini rəhbər tutaraq, məhkəmə kollegiyası

**QƏRARA ALDİ:**

Gəncə Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 16.06.2021-ci il tarixli, 2(104)-621/2021 nömrəli qətnaməsindən Cavabdeh1 kassasiya şikayətinin icraata qəbul edilməsi haqqında qərardad ləğv edilsin və iş kassasiya baxışından çıxarılmaqla apellyasiya instansiyası məhkəməsinə qaytarılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.